*YUBİLYARLARI TƏBRİK EDİRİK!*

# ƏLİYEVA ELMİRA HACI-MURAD QIZI - 60



Azərbaycanın tanınmış neftçi-geoloqlarından biri, geologiya-mineralogiya elmləri doktoru, AMEA-nın müxbir üzvü, Respublikamızda və xaricdə dərc olunan bir cox nüfuzlu jurnalların redaksiya heyətinin, Amerika Kəşfiyyatçı Geofiziklər cəmiyyətinin (SEG), Avropa Yer alimləri və mühəndisləri cəmiyyətinin (EAGE), Avro-Asiya Geofiziklər cəmiyyətinin (EAGO), Beynəlxalq Sedimentoloqlar Cəmiyyətinin (IAS), AMEA-nın Geologiya və Geofizika İnstitutunun nəzdindəki Dissertasiya şurasının üzvü Əliyeva Elmira Hacı-Murad qızının sentyabrın 12-si anadan olmasının 60 ili tamam olmuşdur.

Elmira Əliyeva 1982-ci ildə Bakı Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirərək "Mühəndis-geoloq" ixtisasına yiyələnmiş, 1989-cu ildə həmin Universitetdə əmək fəaliyyətinə başlamışdır. Elmi fəaliyyətini 1991-ci ildən AMEA Geologiya institutunda davam etdirən E.H. Əliyeva burada qısa müddət ərzində kiçik elmi işçidən şöbə müdiri vəzifəsinə qədər yüksəlmişdir. 2007-ci ildən bu günə qədər SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunda "Stratiqrafiya və petrofizika" laboratoriyasına rəhbərlik edir.

E.H.Əliyeva apardığı genişşaxəli tədqiqatların nəticələrini ümumiləşdirərək 1990-cı ildə namizədlik, 2005-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 2014-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

O, sedimentologiya, KH rezervuarlarının arxitekturası, sekvens-stratiqrafiya, süxurların kollektorluq xüsusiyyətləri, Cənubi və Orta Xəzər hövzələrinin karbohidrogen sistemi sahəsi üzrə Respublikamızda aparıcı mütəxəssislərdən biri sayılır. Müxtəlif beynəlxalq, o cümlədən qrant layihələrində daimi olaraq məsul icraçı kimi iştirak edir. Bununla yanaşı, E.H.Əliyeva MDU (Rusiya), Kembric (Böyük Britaniya), TYDelft (Holland), Utrext (Holland), Lion (Fransa), Gent (Belçika), Merilend (ABŞ) universitetləri kimi təhsil ocaqları ilə sıx əməkdaşlıq edir. Elmira xanım dəfələrlə ölkə hüdudlarından kənarda beynəlxalq konqres və konfranslarda etdiyi məruzə və çıxışlarında Azərbaycan elmini layiqincə təmsil etmişdir. Bütün bu işlərlə yanaşı o, pedaqoji fəaliyyətinə də ara verməmiş və bu gün də qazandığı elmin sirlərini gənc nəslə sevərək tədris etməkdədir. E.H. Əliyeva Azərbaycan institutlarının geologiya fakultələrində təhsil alan tələbələri üçün davamlı olaraq BP şirkətinin təşkil etdiyi çoxhəftəlik yay seminarları aparır. O, 14 aspirant və dissertantın işinə rəhbərlik edir. Elmira xanım əldə etdiyi elmi nailiyyətləri 3 monoqrafiya və 200-dən artıq məqalədə işıqlandırmışdır. Fundamental əsər sayılan «Azərbaycan geologiyası» nəşrinin müəlliflərindən biridir. O, həmçinin ingilis dilində nəşr olunan "Neftli-qazlı hövzələrin stratiqrafiyası və sedimentologiyası" beynəlxalq elmi jurnalın baş redaktorunun müavinidir.

E.H.Əliyeva 28 may 2010-cu ildə "Palçıq vulkanizmi və Cənubi-Xəzər hövzəsinin neft-qazlılığı" mövzusunda silsilə nəşrlərinə görə Azərbaycan Respublikasının Dövlət Mükafaqtına layiq görülmüşdür. Xanım Əliyeva Azərbaycan Respublikasının müstəqilliyi tarixində bu mükafata layiq görülmüş ilk qadındır.

Hörmətli Elmira xanımı ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, gözəl əhval-ruhiyyə, ruh yüksəkliyi, xoş günlər və rifah, elmi fəaliyyətinidə yeni-yeni uğurlar arzulayırıq!

***SOCAR Geofizika və Geologiya İdarəsinin əməkdaşları***
***Azərbaycan Milli Geofizika Komitəsi İB***
***"Azərbaycanda geofizika yenilikləri" jurnalının redaksiya heyəti***